# Garabagyñ hebeşileri (negrleri)

Category: Kitapcy,Taryhy makalalar
написано kitapcy | 23 января, 2025
Garabagyñ hebeşileri (negrleri) Qarabağ zənciləri

Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının əməkdaşı, ADR tarixi üzrə tədqiqatçı Dr. Ramin Sadıqovun Feysbuk səhifəsində 1870-ci ilə aid olan "Qarabağ zəncisi" adlı şəkil yayması diqqətimi çəkdi.
Şəkil Feysbukda böyük marağa səbəb olmuşdu. Ortaya belə sual çıxır ki, zəncilər Qarabağa və ya Qafqaza necə gəliblər?
Bu haqda məlumat əldə etmək üçün qısa araşdırma apardıq. Öncə onu xatırladım ki, onlar haqda məlumatlar çox deyil. Bu foto 1845-1924-cü illərdə yaşayan məşhur amerikalı jurnalist Corc Kennan tərəfindən çəkilib. Kennan XIX əsrin 60-ci illərinin sonlarında Rusiyaya və Qafqaza səfər edib, bölgənin etnoqrafiyası, məişəti, adət-ənənəsi ilə maraqlanıb. Jurnalist Qafqaza səfəri çərçivəsində zəncinin şəklini çəkib. Fotonu hansı şəraitdə çəkməsi haqda informasiya yoxdur.
Fotodakı şəxs abxaz zəncisi kimi təqdim edilib. Orxan Lətifli adında bir şəxs forumda yazıb ki, "Bunlar Abxaziyada yaşayan afrikalı zəncilərdir. Bir neçə ailə olub. Onları da Abxaz varlıları gətirib. Bu da orduya götürülənlərdəndir".
Digər mənbədə bildirilir ki, onların Qafqaza gəlməsi haqqında tarixi məlumatlar müxtəlif cürdür. Üstəlik, Corcis nəslinə aid olduğu və ilk dəfə XVII əsrdə Osmanlı imperiyası dövründə Qafqaza gətirildikləri bildirilir. O zaman Abxaziyanın bir hissəsi Osmanlının nəzarəti altında olub. Onların Efiopiya və ya misirli zəncilər olduğu və Qara dəniz sahillərində varlılara məxsus olan sitrus plantasiyalarında işləmək üçün gətirildikləri, saylarının bir neçə yüz olduğu söylənir.
Maraqlıdır ki, Rusiyanın bəzi sayt və forumları onları Qarabağ zəncisi kimi təqdim edib.
Ələkbər Pincivanlı adlı şəxs daha maraqlı arqumentlə çıxış

edərək qeyd edib ki, Zəngilan rayonunun Beşdəli kəndində də belə bir zənci nəsli mövcud olub: “Deyilənə görə, onları o kənddə hansısa bir bəy (adını unutmuşam) öz malikanəsində qulluqçu kimi saxlayıb. Həmin bəyin həm də böyük at ilxısı olub. Və bu zəncilər orda mehtərlik edirmişlər. Hazırda həmin nəslin nümayəndələri yaşayırlar və eşitdiyimə görə, elə bir zənci nəsli Şamaxıda da olub və var”.
Qafqaz xalqları üzrə tədqiqatçı Ənvər Börüsoy Qafqazda ən çox qul və ya kölə saxlamaq adətinin “adıq” kökənli toplumlar olaraq kabarda, çərkəz, abaza, şapsuq, abxaz və adıgeylərə məxsus olduğunu qeyd edərək, bu məsələyə geniş rakursdan yanaşdı:
“Məşhur türkoloq alimlərdən İsmail Miziyev, Zeytun Zukayev, Yuroslan Bolatov, Nəzir Budayev, Əhməd Salpqarov qədim yunan tarixçisi Fukididin və digərlərinin mənbələrinə əsasən qeyd edirlər ki, bu toplumlar vaxtilə Orta Doğudan (indiki Suriya, Misir, Livan, Fələstin, İsrail, İraq, Oman, Sudan) Qafqaza yunan və roma orduları tərəfindən sürgün ediliblər. Çünki Ural, İdel, Altay, Sibir və Türküstandan Avropaya, daha çox Balkan yarımadasına doğru yürüşlər təşkil edən skif (iskit, sak, saka), sarmat, kuban, kuman, daha sonralar xəzər, alan, avar, hun, tatar, karluk türklərinin yürüşlərinin qarşısını almaq üçün onlardan istifadə edilirdi. Beləliklə, adıge kökənli toplumlara türklər “çərkəz” adını verdilər. Çərkəz sözü əski türk dilində əsgər deməkdir. Bölgədə hansı dövlətin hökmranlığı olmuşdursa, onlar həmin dövlətin əsgəri rolunda çıxış etmişlər. Buna görə də çərkəz toplumları öz ailələrini yaşatmaq üçün açıq və ya gizli şəkildə qul (kölə) saxlamaqla öyünərdilər. Bu ənənə indi də onlarda davam edir. Rusiya dövləti bu adəti onlara ötən 450 il müddətində tərgidə bilməmişdir. 1762-1864-cü illər aralığında baş verən “Qafqaz Savaşı” əslində Osmanlı və Rusiya (burada bütün Avropa dövlətləri Rusiyanı silah, professional hərbçi, pul, dərman və ərzaqla təmin edirdilər) savaşı idi. Xəzər imperiyası dönəmindən başlayaraq Osmanlı dönəminə kimi adıq toplumları islam dinini qəbul etdikdən sonra avropalılara arxa çevirmişdilər və buna görə də onlar Osmanlı dövlətinin

maraqlarına görə 100 il davam edən savaşlarda bulundular. Qafqaz Savaşının sonucu olaraq, adıgelərin (çərkəzlər) çoxu Osmanlıya pənah apardı. Osmanlı dövləti isə onların bir hissəsini Qara dəniz boyunca, digərlərini isə onların tarixi vətənləri olan Orta Doğuya köçürtdü. Orta Doğuya köçənlərin Qafqaza geri dönmələrinə imkan yaratmaq məqsədilə sonradan Çar Rusiyası onların xristianlığı qəbul etmələrini bir şərt kimi irəli sürmüşdü. İndiki abxazların və kabardaların xristian olmalarının əsas səbəbi də bundan irəli gəlir.
Orta Doğudan geri dönən imkanlı adıqlar özləri ilə birlikdə qara dərili zəncilər də gətirməyi qərara alırlar. Bu dönəmdə Tiflis, Gəncə, Şuşa, Dərbənd, Şəki, İrəvanda olan bəylər Qafqazdakı ticarət və iqtisadi əlaqələrini qurmağa məcbur olduqları dönəmdə (çünki Çar Rusiyası onların Güney Azərbaycanla ənənəvi əlaqələrini yasaq etmişdi) imkanlı adıqlarla dostluq edirdilər. Adıqların səmimi dostlarına qul (kölə) hədiyyə etmə ənənəsi var. Beləcə, Qafqazda zəngin bəylərin və ağaların evlərində zənciləri görmək mümkün oldu. Keçmiş Sovetlər Birliyi dönəmində adıqlar hər şeyini itirmiş rus əyyaşlarını gizli şəkildə evlərində qul (kölə) kimi saxlayırdılar. Bu gün də həmin ənənə davam etməkdədir"./Axar.az/

Elnur ELTÜRK. Taryhy makalalar